# ÜMİDLİ GƏLƏCƏK

*Çünki biz qayğıkeşik...*

*Qeyri-Kommersiya Qeyri-Hökumət*
*Gənclər Təşkilatı*

# LAYİHƏ VƏ TƏDBİRLƏR

**Əlaqə məlumatı:**
Ünvan: 117, Nizami küç., AZ-1010, Bakı
Tel: (99412) 4932142
Faks: (99412) 4932142
Mobil: (99450) 349-29-48
E-mail: relfuture@azdata.net və nzseidov@yahoo.com
Web: www.reliablefuture.org

**Ümidli Gələcək Gənclər Təşkilatı**
**Yanvar 2008**

# MÜNDƏRİCAT


Ümidli Gələcək haqqında məlumat

Biz kimik?

1999-2006-cı illər ərzində həyata keçirilən layihə və tədbirlər

Sosial Yönümlü Layihələr:

***Ehtiyacı olanlara yardım edirik...***
***Uşaqlarımıza qayğı göstəririk..***
***Narkomaniya və AIDS-lə mübarizə aparırıq...***
***Əlillərin inteqrasiyasını dəstəkləyirik...***
***Deinstitutlaşdırmanı təbliğ edirik...***

Təhsil, Mədəniyyət və Idman Layihələri

***Gənclərimizi ruhlandırırıq...***
***Təhsilin keyfiyyətini yüksəldirik...***
***Mədəniyyət/incəsənət və idmanı təbliğ edirik...***

İnsan Hüquqları və Demokratiyanın inkişafı Layihələri

***Insan və uşaq hüquqlarını təbliğ və tədris edirik...***
***Icmalarımızı gücləndiririk…***
***Demokratiyanı inkişaf etdiririk..***

# ÜMİDLİ GƏLƏCƏK GƏNCLƏR TƏŞKİLATI

**Ümidli Gələcək** Gənclər Təşkilatı 1998-ci ildə Azərbaycanın müxtəlif ali məktəblərinin bir qrup tələbəsi tərəfindən yaradılmış və 1999-cu ilin yanvar ayının 15-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən QHT kimi qeydiyyata alınmışdır.

Yarandığı gündən **Ümidli Gələcək** Azərbaycanın fəal gənclərini öz ətrafında birləşdirərək demokratik, açıq, sağlam, təhlükəsiz vətəndaş cəmiyyəti quruculuğu, əhalinin zəif təbəqələrindən olan ahıllar, uşaqlar, əlillər, qaçqın və məcburi köçkünlərə və s. yardımın göstərilməsi, uşaq və gənclər üçün asudə vaxtın təşkili, mədəniyyət və incəsənətin, təhsilin inkişaf etdirilməsi istiqamətində çalışır.
Ümidli Gələcək Gənclər Təşkilatının fəaliyyət coqrafiyası:
Ümidli Gələcək Təşkilatı müxtəlif ali və orta təhsil məktəblərindən olan 200 nəfərə yaxın gənci birləşdirir. 1999-cu ildə təşkilat regionlarda yaşayıb çalışan gəncləri ictimai işə cəlb etmək və bölgələrdə mövcud olan problemlərin həllində onların iştirakını təmin etmək məqsədilə Mingəçevir, Masallı, Ucar, Göyçay, Zərdab, Qəbələ, Quba, Şəki və Sumqayıt şəhər və rayonlarında öz filiallarını açmış və yerliy icma nümayəndələrindən ibarət təşəbbüs qrupları və yeni QHT-lərin formalaşdırılmasına təkan vermişdir. Bununlada Ümidli Gələcək Təşkilatı öz layihə və proqramlarını Azərbaycanın digər şəhər və rayonlara yaymışdır.

**MISSIYA**

**Azərbaycanın fəal gənclərini birləşdirərək səylərini sivil, demokratik, açıq, təhlükəsiz və sağlam cəmiyyət qurmağa yönəltməkdir.**

**Fəaliyyətinin strateji istiqamətləri:**
Ümidli Gələcək Gənclər Təşkilatı vətəndaş fəallığı və icma iştirakının inkişaf etdirilməsi və vətəndaş cəmiyyətinin qurulması naminə çalışır. Icmaların və bələdiyyələrin fəaliyyətini dəstəkləmək və yerli inkişafa nail olmaq məqsədi ilə, təşkilat Azərbaycanın müxtəlif şəhər və kəndlərində yerli icmaların bütün maraqlı tərəflərinin birgə iştirakı əsasında təlim-tədris, maarifləndirmə proqramları həyata keçirir, icma daxilində qadınlar, gənclər və uşaqların rolunu gücləndirir. Ümidli Gələcək gənclər və qadınların ictimai dialoqlarda, dövlət siyasətinin formalaşdırılmasında, siyasət aləmində fəal iştirakını təmin etmək məqsədilə müxtəlif tədris proqramları təsis edir və liderlik imkanlarını yaradır, qadın və gənclər məsələləri ilə məşğul olan bütün maraqlı tərəflər arasında əməkdaşlığı inkişaf etdirir.

**Ümidli Gələcək Gənclər Təşkilatının fəaliyyət orqanları:**
Müxtəlif problemlərin həllində iştirak etmək üçün Ümidli Gələcək Təşkilatı xüsusi Departamentlər/Şöbələr təsis etmişdir. Hər bir Departament müəyyən maraqlar və problemlər ətrafında gənclər və mütəxəssisləri birləşdirir və onların səylərini müvafiq problemlərin həllinə yönəldir.

**Ümidli Gələcək** aşağıdakı Departamentlərdə fəaliyyət aparır:

1. Menecment, Ictimaiyyətlə Əlaqələr və Fandreyzinq
2. Insan Hüquqları və Demokratiyanın Inkişafı Proqramları
3. Təhsil, Mədəniyyət və Idman Proqramları
4. Sosial və Səhiyyə Proqramları
5. Ekologiya və Ətraf Mühitin Qorunması Proqramları

**Qazandığımız mükafatlar:**
**HUMAY Milli Akademiyasının Laureatı**
Azərbaycanın fəal gənclərini öz ətrafında birləşdirərək demokratik, açıq, sağlam, təhlükəsiz vətəndaş cəmiyyəti quruculuğu, əhalinin zəif təbəqələrindən olan ahıllar, uşaqlar, əlillər, qaçqın və məcburi

köçkünlərə və s. yardımın göstərilməsi, uşaq və gənclər üçün asudə vaxtın təşkili, mədəniyyət və incəsənətin, təhsilin inkişaf etdirilməsi istiqamətində çalışdığı üçün HUMAY Milli Akademiyasının Lareutı adını almışdır.

**Uşaq Hüquqlarının Müdafiəsi və Təbliği sahəsində «Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq» Milli Ictimai Mükafat 2006**

**Ümidli Gələcək Gənclər Təşkilatı Uşaq problemlərinin araşdırılması və aradan qaldırılması sahəsində gördüyü işlərdən dolayı 2006-cı ilin ən yaxşı təşkilatı adına layiq görülmüşdür.**

# BIZ KIMIK?

## Icaredici qrup

| | |
|---|---|
| Nabil Seyidov - | Prezident |
| Dadaş Əhmədov - | Icraçı Direktor |
| Yana Romanova - | Baş Mühasib |
| Kəmalə Aşumova - | Ictimaiyyətlə Əlaqələr Üzrə Koordinator |
| Elçin Əliyev - | Çap işləri üzrə Əlaqələndirici |
| Anar Aşumov - | Çap işləri üzrə Köməkçi |

## Sosial və Səhiyyə Proqramları Departamenti

***Ən çox ehtiyacı olanlara yardım***

| | |
|---|---|
| Kəmalə Aşumova - | Program üzrə Əlaqələndirici |
| Zümrüd Süleymanova - | Proqram üzrə Köməkçi |
| Gülşən Cumayeva - | Proqram üzrə Köməkçi |

## Təhsil, Incəsənət və Idman Proqramları Departamenti

***Gənclər və Uşaqları Dəstəkləmək***
***Məktəbləri Inkişaf Etdirmək***

| | |
|---|---|
| Təranə Şərifova - | Departamentin direktoru |
| Gulnarə Əfəndiyeva - | Baş mütəxəssis |
| Vəfa Məmmədova - | Baş məsləhətçi |
| Gülnarə Quliyeva - | Mütəxəssis |
| Camal Şərifov - | Proqram üzrə Köməkçi |

## Insan Hüquqları və Demokratiyanın Inkişafı Proqramları Departamenti

***Insan hüquqları və demokratiyanı dəstəkləmək***
***Icmaları Gücləndirmək***

| | |
|---|---|
| Dadaş Əhmədov - | Direktor |
| Nizami Heydərov - | Baş mütəxəssis |
| Elxan Mərdandı - | Proqram üzrə Köməkçi |

# LAYIHƏ VƏ TƏDBIRLƏRIN XÜLASƏSI

*(2002-2007-ci illəri əhatə edən seçilmiş layihələr təqdim edilmişdir)*

## 2008-ci il

| | |
|---|---|
| 1. | "Uşaq və Gənclərin Sosial Reabilitasiya Mərkəzi"nin yaradılması: Faza II, Daxili İşlər Nazirliyi, UNİCEF, ATƏT-in Bakı Ofisi və Böyük Britaniya Səfirliyinin dəstəyilə Britaniyanın Esseks Universitetinin Uşaq Hüquqları Mərkəzi ilə əməkdaşlıqda, Yanvar-İyun 2008 |
| 2. | "Uşaq Hüquqları Klinikası"nın yaradılması: Faza II, Ombudsman Aparatı ilə əməkdaşlıqda UNİCEF, ATƏT-in Bakı Ofisi, Böyük Britaniya Səfirliyinin dəstəyilə, Yanvar-İyun 2008 |
| 3. | "Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq" Milli İctimai Mükafat 2008, UNİCEF və Ombudsman Təsisatı ilə birgə və Azercell Telecom şirkətinin dəstəyilə, Aprel-İyun 2008 |
| 4 | Korporativ Sosial Məsuliyyətin İnkişafı Perspektivlərinə dair I Bakı Konfransı, UNİCEF və Azercell Telekom şirkəti ilə əməkdaşlıqda, Fevral-İyul 2008 |
| 5 | Uşaqlar üçün Milli Qaynar Xəttin yaradılması, Azercell Telekom şirkətinin dəstəyilə, May-Dekabr 2008 |
| 6 | "Uşaqların Yaşamağa olan hüququnun müdafiəsi və uşaqların zorakılıqdan qorunmasına dair beynəlxalq proqram", BİCE (Fransa), AirFrance şirkəti, Oak Fondu (ABŞ) |
| 7 | ""Sağlamlığa Çağırış" QHT Alyansının institusional inkişafına dəstək məqsədilə" institusional layihə, Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu, Yanvar-Noyabr 2008 |

## 2007-ci il

| | |
|---|---|
| 1. | «Müxtəliflik və bərabərliyi qiymətləndirməkdən ötrü Gələcək siyasəti formalaşdırmaq» «Hamı fərqlidir Hamı Bərabərdir» Avropa Gənclər Kampaniyası çərçivəsində təlim 28 mart-2 aprel 2007 |
| 2. | «Həyati Bacarıqlara Əsaslanan Təhsil » layihəsi 1-ci faza , Təhsil Nazirliyi və Ümumdünya Ərzaq Proqramı ilə əməkdaşlıqda, Mart-Iyun 2007 |
| 3. | "Uşaq və Gənclərin Sosial Reabilitasiya Mərkəzi"nin yaradılması, Daxili İşlər Nazirliyi, UNİCEF, ATƏT-in Bakı Ofisi və Böyük Britaniya Səfirliyinin dəstəyilə Britaniyanın Esseks Universitetinin Uşaq Hüquqları Mərkəzi ilə əməkdaşlıqda, Avqust 2007 |
| 4. | "Uşaq Hüquqları Klinikası"nın yaradılması, Ombudsman Aparatı ilə əməkdaşlıqda UNİCEF, ATƏT-in Bakı Ofisi, Böyük Britaniya Səfirliyinin dəstəyilə Hüquq Dünyası İctimai Birliyi ilə birgə, Sentyabr 2007 |
| 5. | "Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq" Milli İctimai Mükafat 2007, Azercell Telecom şirkəti, Aprel-İyul 2007 |
| 6. | ""Sağlamlığa Çağırış" QHT Alyansının institusional inkişafına dəstək məqsədilə" institusional layihə, Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu, Noyabr 2007-Sentyabr 2008 |
| 7. | «Həyati Bacarıqlara Əsaslanan Təhsil» layihəsi çərçivəsində audio-vizual materialların hazırlanması, Təhsil Nazirliyi və Ümumdünya Ərzaq Proqramı ilə əməkdaşlıqda, Avqust 2007 – Fevral 2008 |

## 2006-cı il

| | |
|---|---|
| 1. | Xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinə dair Konfrans və bu sahədə fəaliyyə göstərən QHT və icma əsaslı mərkəzlərin Sərgisi, Yanvar – May 2006 |
| 2. | Uşaqlar üçün Mərkəzi və Şərqi Avropa, MDB və Baltikayanı ölkələr üzrə Regional QHT Şəbəkəsinin Katibliyinin fəaliyyətinin əlaqələndirilməsi və təşkili, Avropa Birliyi Komissiyası və UNICEF, Yanvar – Iyun 2006 |
| 3. | Azərbaycanda Yuvenal Ədliyyənin Inkişafı perspektivlərinə dair Beynəlxalq Konfrans, UNICEF, ATƏT və Böyük Brityaniya Səfirliyi, Fevral – Aprel 2006 |
| 4. | Quş Qripi xəstəliyi ilə bağlı əhalinin məlumatlandırılması, ACI-YF, Fevral – Mart 2006 |

| | |
|---|---|
| 5. | MDB ölkələrinin regionlardan olan gəncləri üçün Insan hüquqlarına dair Yaz Məktəbi, Avropa Şurası, Fevral – Iyun 2006 |
| 6. | Yuvenal Ədliyyə Sisteminin Inkişafı və Yuvenal Ədliyyə sistemini təşkil edən qurumların fəaliyyətinin monitorinqi, ATƏT-in Bakı Ofisi, Yanvar - Iyun 2006 |
| 7. | «Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq» layihəsinin 2-ci fazasının Azərbaycanda həyata keçirilməsi, Avropa Birliyi Komissiyası və UNICEF, May 2005 – Iyun 2006 |
| 8. | Uşaqlara qarşı cinsi zorakılıq, uşaqların istismarı, uşaq fahişəliyi və pornoqrafiyasına qarşı mübarizəyə dair təlim proqramı, Uşaq Hüquqları Konvensiyası üzrə QHT Qrupu (Isveçrə), Fevral-Mart 2006 |
| 9. | Azərbaycanda uşaqlar üçün qaynar xəttin yaradılması və fəaliyyəti perspektivlərinə dair Milli Konfrans, Iyun 2006 |
| 10. | Bakı şəhərinin 11 rayonunda qanunla münaqişədə olan yetkinlik yaşına çatmayanlar üçün Uşaqdan-uşağa dəstək və Mentorluq Xidmətləri UNICEF, May-Oktyabr 2006 |
| 11. | Ictimai fəal məktəblərin Inkişafına dair təlimlər. Avrasiya Fondu (ABŞ-ın Beynəlxaq Inkişafı Agentliyi), Yanvar-Avqust 2006 (*davamı*) |
| 12. | Azərbaycanın 3 rayonunda Məktəb Uşağın Dostudur konsepsiyasının inkişafı, UNICEF , Mart-Dekabr 2006 |
| 13. | Azərbaycanın Fizuli, Imişli rayonları və Mingəçevir şəhərində «Məktəb Uşağın Dostudur» konsepsiyasının təbliği və Valideyn-Müəllim Assosiasiyalarının yaradılması və inkişafı, Ümumdünya Ərzaq Proqramı, Aprel-Dekabr 2006 |
| 14. | Azərbaycanın Biləsuvar, Yevlax və Səlyan rayonlarında «Məktəb Uşağın Dostudur» konsepsiyasının təbliği və Valideyn-Müəllim Assosiasiyalarının yaradılması və inkişafı, Ümumdünya Ərzaq Proqramı, Avqust-Dekabr 2006 |

## 2005-ci il

| | |
|---|---|
| 1. | Azərbaycanın 10 rayonu ərazisində müvəqqəti yerləşmiş 44 məcburi köçkün məktəbində valideyn-müəllim-məktəbli-icma əlaqələrinin qurulması və Valideyn-Müəllim Assosiasiyalarının yaradılmasına texniki dəstək, UNICEF, Təhsil Nazirliyi və Dünya Ərzaq Proqramı, Mərhələ II: Aprel-Iyun 2005 |
| 2. | Ictimai fəal məktəblərin Inkişafına dair təlimlər Avrasiya Fondu (ABŞ-ın Beynəlxaq Inkişafı Agentliyi), Sentyabr-Dekabr 2005 |
| 3. | Zəif eşidən uşaqlar üçün Internat Məktəbində Tədris və Kompüter Mərkəzinin və Audiometriya Kabinetinin yaradılması: Aprel-Avqust 2005 |
| 4. | Azərbaycan tərəfindən BMT-nin Uşaq Hüquqları Konvensiyasının icrası və Azərbaycanda uşaqların vəziyyətinə dair Alternativ QHT Hesabatının hazırlanması, Mərhələ II: UNICEF, Kanadanın Beynəlxalq Inkişafı Agentliyi, Dünyaya Baxış və Uşaqları Xilas təşkilatı, Yanvar-Iyun 2005-ci il |
| 5. | Azərbaycanda Yuvenal Ədliyyə sisteminin mövcud durumunun araşdırılması, təhlili və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə tövsiyyələr paketinin hazırlanması: ATƏT-in Bakı ofisi və Böyük Britaniya Səfirliyi, Yanvar-Aprel 2005-ci il |
| 6. | Insan və Uşaq hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlərinin öyrədilməsinə dair Beynəlxalq Təlim Kursu: Avropa Şurası, Avropa Gənclər Fondu, Yanvar-May 2005 |
| 7. | MDB və Mərkəzi Şərqi Avropa regionu ölkələrində münaqişələrin həlli və sülh quruculuğunda gənclərin iştirakı modelləri və uğurlu təcrübələrin paylaşmasına dair Gənc Liderlər üçün Beynəlxalq Təlim Kursu, Avropa Şurası, Avropa Gənclər Fondu, Yanvar-May 2005 |
| 8. | Gənc Siyasi Liderlər üçün Beynəlxalq Təlim Kursu, Avropa Şurasının Avropa Gənclər Fondu, Yanvar - May 2005 |
| 9. | Uşaqlar üçün Mərkəzi və Şərqi Avropa, MDB və Baltikayanı ölkələr üzrə Regional QHT Şəbəkəsinin Katibliyinin fəaliyyətinin əlaqələndirilməsi və təşkili, Avropa Birliyi Komissiyası və UNICEF, Fevral 2005 – Iyun 2006 |
| 10. | «Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq» layihəsinin 2-ci fazasının Azərbaycanda həyata keçirilməsi, Avropa Birliyi Komissiyası və UNICEF, May 2005 – Iyun 2006 |
| 11. | Yuvenal Ədliyyə Sisteminin Inkişafı və Yuvenal Ədliyyə sistemini təşkil edən qurumların fəaliyyətinin monitorinqi, ATƏT-in Bakı Ofisi, Sentyabr 2005 – Iyun 2006 |

| | |
|---|---|
| 12. | Azərbaycanda Yuvenal Ədliyyə Islahatı - II Faza, ATƏT-in Bakı Ofisi və Böyük Britaniya Səfirliyi, Sentyabr 2005-Yanvar 2006 |
| 13. | Xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinə həsr edilmiş Elmi-praktiki Konfrans və xüsusi qayğıya ehtiyacı olan uşaqlara qayğı göstərən QHT və icma əsaslı mərkəzlərin Sərgisi, Save the Children Azərbaycan, Dekabr 2005 - Mart 2006 |
| 14. | Ictimai Fəal Məktəblərin Inkişafına dair Kiyev şəhərində keçirilən Beynəlxalq Konfrans |

## 2004-cü il

| | |
|---|---|
| | Azərbaycanın 10 rayonu ərazisində müvəqqəti yerləşmiş 44 məcburi köçkün məktəbində valideyn-müəllim-məktəbli-icma əlaqələrinin qurulması və Valideyn-Müəllim Assosiasiyalarının yaradılmasına texniki dəstək, UNICEF, Təhsil Nazirliyi və Dünya Ərzaq Proqramı, Mərhələ I: Noyabr-Dekabr 2004 |
| | Azərbaycanda BMT-nin Uşaq hüquqları konvensiyasının icrası və uşaqların vəziyyətinə dair Alternativ hesabatın hazırlanması və BMT-nin Uşaq Hüquqları Komitəsinə təqdim edilməsi, Mərhələ I: UNICEF, Noyabr-Dekabr 2004 |
| 3. | Qərb bölgəsində Vətəndaş Cəmiyyəti strukturlarının imkanlarının genişləndirilməsi ilə bağlı 4 rayonda sorğunun keçirilməsi və yerli təlimçilər üçün 3 Günlük təlim kursunun təşkili: Alman Texniki Əməkdaşlıq Təşkilatı (Almaniya Höküməti), Yanvar-Fevral 2004 |
| 4. | Yerli təlimçilər üçün layihələrin yazılması qaydaları və maliyyə vəsaitinin axtarışı ilə bağlı 1 günlük təlim kursunun keçirilməsi: Alman Texniki Əməkdaşlıq Təşkilatı (Almaniya Höküməti), Yanvar-Fevral 2004 |
| 5. | Sumqayıt şəhərində məskunlaşmış qaçqın və məcburi köçkünlər üçün Tolerantlıq və Sülh mədəniyyəti və münaqişələrin həlli üzrə təlim kursu, Danimarka Qaçqınlar Şurasının dəstəyi ilə, Iyun-Iyul 2004 |
| 6. | Valideyn-Müəllim Assosiasiyalarının Inkişafı üçün Milli Siyasətin Formalaşdırılmasına dair 1-ci Milli Konfrans: UNICEF və Təhsil Nazirliyinin dəstəyi ilə, Yanvar-Fevral 2004 |
| 7. | MDB ölkələrində Münaqişələrin Transformasiyası və Sülh Quruculuğunda Gənclərin Roluna dair Beynəlxalq Təlim Kursu və Konfrans: Avropa Şurasının dəstəyi ilə, Dekabr - Mart, 2004 |
| 8. | Kor və Zəif Görən Uşaqlar üçün Internat Məktəbində ilk dəfə Çap və Tədris Mərkəzinin yaradılması: UNESCO və Təhsil Nazirliyinin, World Vision International, SanSet Kafe, Blue Water Shipping CV və Beynəlxalq Qadınlar Klubunun dəstəyi ilə, Aprel - Iyun, 2004 |
| 9. | Aqstafa, Tovuz, Gədəbəy və Qazax rayonlarında fəaliyyət göstərən bələdiyyələr, onların koordinasiya şuraları üzvləri və əməkdaşları üçün imkanların genişləndirilməsi ilə bağlı geniş tədris proqramı: Alman Texniki Əməkdaşlıq Təşkilatının (Almaniya Höküməti) dəstəyi ilə, Aprel - Avqust 2004 |
| 10. | Valideyn-Müəllim Assosiasiyalarının yaradılması və inkişafı üçün proqramın ikinci hissəsi: UNICEF və Təhsil Nazirliyinin dəstəyi ilə, Aprel-Dekabr 2004 |
| 11. | Azərbaycanın 7 rayonu və Gürcüstanın 3 rayonunda müvəqqəti məkunlaşmış qaçqın və məcburi köçkün uşaqlar üçün yaradılmış orta ümumtəhsil məktəblərində Sülh Quruculuğu və Münaqişələrin Həlli üzrə pilot fakultativ dərslərin hazırlanması və məktəb proqramına daxil edilməsi: Danimarka Qaçqınlar Şurası (DRC) və Təhsil Nazirliyinin dəstəyi ilə, May - Sentyabr 2004 |
| 12. | "Məhbusların hüquq və azadlıqları": Məhbusların hüquqları barəsində maarifləndirilməsi sahəsində geniş tədris proqramı: Avropa Şurasının Avropa Gənclər Fondunun maliyyə yardımı və Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının Icrası Baş Idarəsi, Azərbaycan Respublikası Insan Hüquqları üzrə Müvəkkilinin texniki dəstəyi ilə, Mart - Iyun 2004 |
| 13. | Azərbaycanın Mərkəzi Aran rayonları olan Göyçay, Zərdab və Ucar rayonlarında yerli əhalinin səfərbər edilməsi, bələdiyyə, yerli icra hakimiyyəti orqanları və əhali arasında əməkdaşlığın qurulması və yerli problemlərin birgə səylər nəticəsində həlli üçün xüsusi tədris proqramı, May-Oktyabr, 2004 |
| 14. | Gürcüstanın Azərbaycanlılar yaşayan bölgələrində vətəndaş cəmiyyəti strukturlarının mövcud vəziyyətinin təhlili və vətəndaş cəmiyyəti strukturlarının, əsasəndə QHT-lərin inkişafı üçün xüsusi tədris və inkişaf proqramının hazırlanması, Alman Inkişaf Agentliyi (GTZ), Iyun- Iyul 2004 |
| 15. | Azərbaycanda Internat Müəssisələri və Evdə təhsil alan əlil və ya sağlamlığı məhdud olan uşaqların (xüsusi ehtiyacı olan uşaqlar) təhsil sahəsindəki durumunun təhlili və inkluziv-inteqrativ təhsilin həyata keçirilməsi üçün konkret tədbirlər və təkliflər paketinin hazırlanması, Iyun-Iyul, 2004 |

## 2003-ci il

| | |
|---|---|
| | Uşaqlar arasında Uşaq hüquqlarının müdafiəsinə həsr edilmiş 1-ci Milli Rəsm Müsabiqəsi: Britaniya Səfirliyi dəstəyi ilə, Mart–Oktybar 2003 |

| | |
|---|---|
| 2. | Bələdiyyələrin inkişafı üzrə təlim və tədris proqramı: ABŞ-ın Demokratiyaya Himayə Fondunun maliyyə dəstəyi ilə, Mart-Iyun 2003 |
| 3. | Ombudsman: Insan hüquqları və azadlığının təminatçısı: Avropa Birliyinin Komissiyasının maliyyə dəstəyi və Azərbaycan respublikası Insan Hüquqları üzrə Müvəkkilinin dəstəyi ilə, Mart-Sentyabr 2003 |
| 4. | Respublikanın 5 pilot rayonunda Valideyn-Müəllim Assosiasiyalarının yaradılması: UNICEF-in maliyyə dəstəyi ilə, Fevral-Dekabr 2003 |
| | Heç Bir Uşağı Nəzərdən Qaçrmayaq Milli Kampaniyası çərçivəsində 1 Dəqiqəlik Filmlər Müsabiqəsi: UNICEF-in maliyyəsi ilə, Fevral-May 2003 |
| | Uşaq Hüquqları Konvensiyası üzrə Milli Rəsm-Plakat Müsabiqəsi: UNICEF-in maliyyə dəstəyi ilə, Fevral-Sentyabr 2003 |
| 7. | Azərbaycan Bələdiyyələr Assosiasiyasının yaradılması: IFES və USAID-nin dəstəyi ilə, Mart-Oktyabr 2003 |
| 8. | Xaçmaz, Quba və Qusar rayonlarının 10 kəndində Yer Cünü ilə bağlı yaşıllışdırma işləri və ekoloci maarifləndirmə (partnyor təşkilat kimi): ABŞ Səfirliyinin yardımı ilə, May – Avqust 2003 |
| 9. | «Hüquqi təhsil, yerli əhalinin bələdiyyələrin işində iştirakı, qadın və gənclərin fəallığı» mövzularına dair silsilə seminarların keçirilməsi: IFES və USAID-nin dəstəyi ilə, Oktyabr-Noyabr 2003 |
| 10. | Beynəlxalq Sülh Gününə həsr edilmiş «Gənclik və Sülh» mövzusunda 8-20 yaşlı uşaq və gənclər arasında Mətbuat yazıları və 1 Dəqiqəlik Filmlər üzrə Müsabiqə: UNIFEM-in maliyyə dəstəyi ilə, Avqust – October 2003 |
| 11. | Mərkəzi Seçki Komissiyası üçün ABŞ Səfirliyinin dəstəyi ilə buklet və plakatların çapı: ABŞ dövlət departamenti, Sentyabr-Oktyabr 2003 |
| 12. | ABŞ-da gənclərin liderliyi mövzusunda 3 həftəlik təlim kurs: ABŞ səfirliyi və ABŞ Dövlət Departamentinin dəstəyi ilə, Oktyabr –Noyabr 2003 |
| 13. | MDB məkanında qadın hüquqlarının pozulmasına dair Beynəlxalq Təlim Kursu: Avropa Şurasının Gənclər Fondunun dəstəyi ilə, Sentyabr-Dekabr 2003 |
| 14. | Azərbaycanın qərb rayonlarında imkanların genişləndirilməsi və 1500 bələdiyyə nümayəndələrinə təlim kurslarının keçirilməsi üzrə layihə: Alman Texniki Əməkdaşlıq Təşkilatı (Almaniya Höküməti), Iyun-Oktyabr 2003 |

## 2002-ci il

| | |
|---|---|
| 1. | Maştağa, Bilgəh Internatları və Zağulba Sümük-Vərəm Sanatoriyasının 450 kimsəsiz, fiziki və ruhi xəstə uşaqları üçün Yeni Il şənliyi - 2002, 1 Yanvar |
| 2. | Səlyan və Biləsuvar rayonlarının Qaçqın Düşərgələrində yaşayan Qaçqın və Məcburi Köçkün şagirdləri üçün Geniş Tədris Proqramı – Dekabr-May 2001/02 |
| 3. | "Əgər mən sülh elçisi olsaydım..." adı altında Azərbaycan məktəbliləri arasında Inşa Müsabiqəsi – Aprel–Iyun 2002 |
| 4. | Uşaq Hüquqları Konvensiyasına dair treninqlərin keçirilməsi üçün Azərbaycan dilində Xüsusi Dərsliyin təkmilləşdirilməsi – Aprel 1 – 30, 2002 |
| 5. | Dövlət məmurları və QHT-lərin nümayəndələri üçün Azərbaycanın 8 regionunda Geniş Tədris Kursu: May/Sentyabr 2002 |
| 6. | Dövlət qurumları, bələdiyyələr, QHT-lərin nümayəndələri, uşaqlar, valideynlər və müəllimlər üçün Uşaq Hüquqları sahəsində 12 rayonda təlimlərin keçirilməsi: Iyul-Sentyabr 2002 |
| 7. | Uşaq Hüquqları üzrə Əlifbanın təbliği ilə bağlı respublikanın 5 pilot məktəbində valideynlər, müəllimlər və uşaqlar üçün təlim kurslarının keçirilməsi: Sentyabr-Noyabr 2002 |
| 8. | Azərbaycan, Bolqarıstan, Albaniya, Makedoniya və Rusiyadan olan milli azlıqların gənc liderləri üçün Beynəlxalq Təlim kursu: Dekabr 2002 – Mart 2003 |
| 9. | QHT Koalisiyasının yaradılması və Tütünə Nəzarət Çərçivə Konvensiyasının təbliği: Dekabr 2002–May, 2003 |

# LAYIHƏ & TƏDBIRLƏRIN TƏSVIRI

## SOSIAL VƏ SƏHIYYƏ YÖNÜMLÜ LAYIHƏLƏR

*Ehtiyacı olanlara yardım edirik...*
*Uşaqlarımıza qayğı göstəririk...*
*HIV və narkomaniyaya qarşı mübarizə aparırıq...*

### “”Sağlamlığa Çağırış” QHT Alyansının institusional inkişafına dəstək layihəsi, Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu: Noyabr 2007-Noyabr 2008

“Sağlamlığa Çağırış” QHT Alyansı Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun (ACİ YF) dəstəyi ilə 11 yerli QHT tərəfindən 7 may 2007-ci il tarixində təsis edilib. Alyansın təsis edilməsindən dərhal sonra onun institusional inkişafı və üzvlərinin imkanlarının, bilik və bacarıqlarının artırılması, habelə Alyansın geniş ictimaiyyət arasında tanıtımı məqsədilə xüsusi institusional layihə hazırlanmışdır. Bu layihənin idarə edilməsi Ümidli Gələcək təşkilatına həvalə edilmişdir. Layihə çərçivəsində Alyans üzvləri üçün təlim kursu və aylıq görüşləri həyata keçirilmiş, Alyansın internet səhifəsi və barəsində Azərbaycan və İngilis dilində bukletlər hazırlanmış və çap edilmişdir.

### “Azərbaycanda Korporativ Sosial Məsuliyyətin inkişafı perspektivləri” mövzusunda Birinci Bakı Konfransı : 20-21 May 2008

Yerli biznes qurumlarının Korporativ Sosial Məsuliyyətin inkişafına dair məlumat səviyyəsinin artırılması, yerli və beynəlxalq biznes tərəfindən KSM-ə dair kodeks və ya proqramların işlənib qəbul edilməsinə təkan vermək və həmçinin sosial, təhsil, humanitar, ekoloji və s. problemlərin həlli üçün biznes-dövlət-vətəndaş cəmiyyəti arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsinə yardımçı olmaq məqsədilə Uşaq Hüquqları üzrə QHT Alyansı UNİCEF-lə əməkdaşlıqda və Azercell Telekom şirkətinin dəstəyi ilə 2008-ci ilin May ayının 20-21-də Park İnn Otelində “Azərbaycanda Korporativ Sosial Məsuliyyətin inkişafı perspektivləri” mövzusunda Birinci Bakı Konfransını təşkil etdi. Konfransda yerli və beynəlxalq biznes qurumlarının rəhbərləri və əməkdaşları, KSM sahəsində beynəlxalq və milli ekspertlər, müvafiq dövlət qurumlarının nümayəndələri, Milli məclisin deputatları v qeyri-hökumət təşkilatlarının üzvləri iştirak etmiş və onların təqdimatları dinlənilmişdir. Konfransın yekunu olaraq bütün təqdimat və çıxışlardan ibarət toplu hazırlanmış və iştirakçılara paylanmışdır.

### “Uşaqlar üçün Milli Qaynar Xətt” Xidmətinin yaradılması, **Aprel 2008**

2005-ci ildən başlayaraq QHT Alyansı müxtəlif problemlərlə bağlı, habelə uşaq hüquqlarının pozulması halları ilə əlaqədar uşaqlar və ya onların valideynləri/qəyyumları tərəfindən edilən zəngləri qəbul edir və uşaqlara dəstək verməyə çalışır. 2007-ci ildə isə QHT Alyansı daxil olan zəngləri daha səmərəli və keyfiyyətli səviyyədə cavablandırılması məqsədilə bir sıra yerli QHT və reabilitasiya mərkəzləri ilə, habelə Sumqayıt şəhərində yerləşən uşaq qaynar xətti ilə xüsusi əməkdaşlıq memorandumu bağlamışdır. 2006-cı ildə QHT Alyansı və onun iki üzvü Ümidli Gələcək Gənclər Təşkilatı və “Etimad” Qaynar xətti Beynəlxalq Uşaq Qaynar Xəttləri təşkilatının tam hüquqlu üzvü seçilmişdir. Hal-hazırda QHT Alyansı “Uşaqlar üçün Milli Qaynar Xətt” xidmətinin yaradılmasına çalışır ki, bu xidmət vasitəsilə uşaqlar zəng edərək psixoloji, mənəvi və emosional dəstək, hüquqi məsləhət, hüquqları pozulduqda isə hüquqi yardım, müxtəlif problemlərə dair məlumat almaq imkanı əldə edəcək. Həmçinin, uşaqları və ya onların valideynləri/qəyyumları yuxarıda sadalanmış digər xidmətlərlə təmin etmək və onların ehtiyaclarını ödəmək məqsədilə operatorlar uşaqların zənglərini QHT Alyansının aidiyyatı üzvləri, tərəfdaşları və ya yaratdığı digər müəssisə və xidmətlərə ötürəcəkdir.

### **“QUŞ QRIPINƏ” DAIR ƏHALİNİN MƏLUMATLANDIRILMASI, ACI-YF, Fevral –May 2006**

Sosial və Səhiyyə Proqramları Deparamenti Dünya Səhiyyə Təşkilatının və digər beynəlxalq qurumların bu virusla mübarizə və onun profilaktikası, həmçinin xəstəliyin ilkin simptomları haqqında yaydığı məlumatları

toplayaraq, öz hesabına tərcümə etdirmiş, buklet şəklində hazırlamış və Açıq Cəmiyyət Institutu Yardım Fondunun dəstəyilə çap etdirmişdır. Bu bukletin hazırlanmasının əsas məqsədi virusun yoluxma yolları, özünü müdafiə və digər mühüm məlumatlarla əhalini bilgiləndirməkdir. 2000 tiracla çap olunmuş buklet Füzuli, Goranboy, Mingəçevir, Lənkəran və Quba rayonlarında müvafiq idarələrə göndərilmiş və əhali arasında paylanmışdır.

**AZƏRBAYCANDA UŞAQLAR ÜÇÜN QAYNAR XƏTTIN YARADILMASI VƏ FƏALIYYƏTI PERSPEKTIVLƏRINƏ DAIR MILLI KONFRANS, IYUN 2006**

Iyun ayının 16-da Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının, Beynəlxalq Uşaq Qaynar Xətləri Təşkilatının və ATƏT-in birgə reallaşdırdıqları layihə çərçivəsində ölkə üzrə Uşaqlar üçün Qaynar Xəttin Yaradılması və Fəaliyyəti Perspektivlərinə dair Milli Konfrans keçirilib. Konfransda uşaqlar üçün qaynar xəttin yaradılması mexanizmləri, onun perspektiv fəaliyyəti və uşaqlara hər-tərəfli xidmətlərin göstərilməsi məqsədilə müxtəlif dövlət və qeyri-hökumət təşkilatlarının əməkdaşlığının yolları müzakirə edilib.

**UŞAQLARA QARŞI CINSI ZORAKILIQ, UŞAQLARIN ISTISMARI, UŞAQ FAHİŞƏLIYI VƏ PORNOQRAFIYASINA QARŞI MÜBARIZƏYƏ DAIR TƏLIM PROQRAMI, UŞAQ HÜQUQLARI KONVENSIYASI ÜZRƏ QHT QRUPU (ISVEÇRƏ), Fevral-Mart 2006**

Fevral ayının 25-26-da Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı (Azərbaycan) və BMT-nin Uşaq Hüquqları Konvensiyası üzrə QHT Qrupu (Isveçrə) uşaqların cinsi və kommersiya məqsədilə istismarı, uşaqlardan cinsi-sui istifadə, uşaq pornoqrafiyası və uşaqlara qarşı cinsi zorakılıq məsələlərinə dair təlim kursu həyata keçirdilər. Təlim kursunun həyata keçirilməsində məqsəd Azərbaycanda bu istiqamətdə fəaliyyət göstərən və araşdırma aparan QHT-lərin, dövlət siyasətini həyata keçirən müvafiq dövlət orqanlarının, və KIV nümayəndələrinin bu sahəyə dair mövcud beynəlxalq və milli qanunvericiliklə tanış edilməsi, dünya ölkələrində bu sahədə görülən işlər barədə məlumatlandırmaq olmuşdur. Təlim kursu Isveçrədən dəvət edilmiş beynəlxalq mütəxəssis tərəfindən aparılmışdır. Təlimin nəticəsi olaraq iştirakçılar uşaqlara qarşı cinsi zorakılıq və cinsi sui-istifadə hallarının qarşısının alınması və insanların bu sahədə daha məlumatlı olmalarının təmin edilməsi məqsədilə bu sahədə nümunəvi Milli Fəaliyyət Planı hazırladılar. Həmin Fəaliyyət Planı Təhsil Nazirliyinə, Səhiyyə Nazirliyinə, Daxili Işlər Nazirliyinə, Gənclər və Idman Nazirliyinə, Mədəniyyət və Turizm Nazirliyinə, Ombudsman Aparatına, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, Televiziya və Radio Yayım Şurasına, Mətbuat Şurasına və ölkədə fəaliyyət göstərən internet provayderlərinə və digər aidiyyatlı qurumlara göndərildi.

**ZƏIF EŞIDƏN UŞAQLAR ÜÇÜN MINÜATÜR EŞITMƏ APARATLARININ ALINMASI MƏQSƏDILƏ XEYRIYYƏ KONSERTININ TƏŞKILI**

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Valideyn-Müəllim Assosiasiyası və Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı 12 Aprel 2005-ci il tarixində saat 19:00-da Müslim Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Xeyriyyə Konserti təşkil edib. Konsertin məqsədi Bakı şəhəri 8-ci km qəsəbəsində yerləşən kar və eşitmə qabiliyyəti zəif olan uşaqlar üçün nəzərdə tutulmuş Internat Məktəbində təhsil alan 300-dən artıq şagirdin təhsil imkanlarını genişləndirmək və inkişaf etdirmək məqsədilə həmin məktəbdə Tədris və Kompüter Mərkəzi və Audiometriya Kabinetinin yaradılması və həmçinin xüsusi eşitmə qabiliyyətini artıran mini-eşitmə cihazları alınması üçün lazımi maliyyə vəsaitini əldə etmək idi.

**GÖZDƏN ƏLIL VƏ ZƏIF GÖRƏN UŞAQLAR ÜÇÜN BRAYL ÇAP VƏ TƏDRIS MƏRKƏZININ YARADILMASI: Fevral-Iyun 2004-cü il**

Sovetlər Ittifaqə dağılmaqla yanaşı keçmiş Sovet Respublikalarında iqtisadi-siyasi həyatda olduğu kimi sosial, mədəni, təhsil və s sahələrdə də kəskin surətdə vəziyyətin pisləşməsi başladı. Ilk növbədə bu cəmiyyətin ən zəif təbəqələrinə öz mənfi təsirini göstərdi. Sovetlər vaxtı çox böyük müvəffəqiyyətlə fəaliyyət göstərən və aidiyyatı olan benefisiantlara kömək göstərən qurumlar öz fəaliyyətini dondurmuş və ya imkanları məhdudlaşmışdır. Bunu nəzərə alaraq, ÜMIDLI GƏLƏCƏK Gənclər Təşkilatı Azərbaycanda zəif təbəqələrə yardım məqsədilə geniş tədqiqat aparmış və sosial müdafiəsi zəif olan qruplara yardım göstərmək üçün inkişaf proqramı hazırlamışdı. Tədqiqatın nəticəsi olaraq bir çox internat, internat tipli, xüsusi qayğıya ehtiyacı olanlar üçün məktəblər və s. təsisatların ən ümdə ehtiyacları təyin edilmiş və onların ödənilməsi üçün proqram təkliflər paketi təsdiq edilmişdi. Məhz bu təkliflər paketi çərçivəsində Bakı şəhərində yerləşən Kor və Zəif Görən Uşaqlar üçün Internat Məktəbində təhsil alan 300 məktəblini Brayl əlifbası əsasında (nöqtəli işarələr) hazırlanmış xüsusi kitablarla təhciz etmək məqsədilə ilk dəfə olaraq Isveçdən çap avadanlığının

alınıb gətirilməsini nəzərdə tutan layihə hazırlanmış və UNIESCO-nun Koreya Milli Komitəsi, Beynəlxalq Qadınlar Klubu, Blue Water Shipping şirkəti, SunSet Cafe, Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən maliyyələşdirilmişdir. Bu layihə çərçivəsində Azərbaycanda ilk dəfə olaraq Kor və Zəif Görən Uşaqlar üçün Internat Məktəbində Brayl Çap və Tədris Mərkəzi yaradılmışdır ki, orada xüsusi olaraq Isveçdən alınmış Brayl Çap Avadaqlığı, kompüter texnikası yerləşdirilmiş və mərkəz mebellə təhciz edilmişdir.

### BILƏSUVAR VƏ SƏLYAN RAYONLARININ QAÇQIN DÜŞƏRGƏLƏRINDƏ MƏSKUNLAŞMIŞ QAÇQIN VƏ MƏCBURI KÖÇKÜN UŞAQLAR ÜÇÜN GENIŞ TƏDRIS PROQRAMI: 2001-2002

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ölkədə 1 milyondan artıq qaçqın və məcburi köçkünün öz doğma torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir. Didərgin düşmüş insanların təxmini olaraq 30-35%-ni uşaq və yeniyetmələr təşkil edir. Uşaqlar və gənclər əhalinin zəif təbəqələrindən biri olaraq hamıdan çox qayğı, diqqət, hörmət və ictimaiyyətin mühafizəsinə ehtiyacı vardır. Bunları nəzərə alaraq, Ümidli Gələcək Təşkilatının həyata keçirdiyi bu layihənin əsas məqsəd və vəzifələri Səlyan və Biləsuvar rayonları ərazisində yerləşmiş qaçqın düşərgələrində müvəqqəti məskunlaşmış uşaqlara dəstək vermək, onların cəmiyyətdən təcrid olunmasına yol verməmək, uşaqların təhsil sahəsində mövcud olan kəskin problemlərinin həllində yardımçı olmaq və uşaqlar arasında zəruri psixososial reabilitasiya və s. tədbirlərin həyata keçirməkdən ibarət olmuşdur. Layihə çərçivəsində uşaqlar üçün müxtəlif əyləncə tədbirləri (musiqi, teatr və idman tədbirləri, gəzintilər və açıq havada keçirilən oyunlar, rəqs, və s. müsabiqələr), geniş ədris proqramı (ingilis dili, rəsm, foto və şəkil çəkmə dərsləri, qızlar üçün tikmə və biçmə dərsləri, kompüterin əsasları, insan hüquqları və vətəndaş cəmiyyətinin inkişafı, QHT və onların iş prinsipləri haqqında məlumat, şəxsi gigiyena, sağlam həyat tərzi haqda geniş maarifləndirmə) və s. həyata keçirilmişdi. Layihə zamanı düşərgələrdə iki sinif otağı yaradılmış və lazımi tədris avadanlığı ilə tam təhciz edilmişdir. Məktəblərə iki kompüter və printer hədiyyə edilmişdir. Bundan əlavə uşaqların 6 ay ərzində gördükləri işləri geniş ictimaiyyətə çatdırmaq və bunun vasitəsi ilə cəmiyyətin bu uşaqlara olan diqqətini daha da artırmaq məqsədi ilə sponsor, Nazirlər Kabineti, bir sıra nazirliklərin rəhbərləri və KIV nümayəndələrinin iştirakı ilə Bakı şəhərində uşaqların iştirakı ilə Sərgi və təqdimat keçirilmişdi. Layihənin sonunda görülmüş işləri əks etdirən sənədli film hazırlanmışdı.
Layihə **Ekson Azərbaycan Əməliyyat Şirkəti, EksonMobilin törəmə Şirkətinin** maliyyə dəstəyi sahəsində keçirilmişdi.

### 1 SAYLI MAŞTAĞA VƏ 11 SAYLI BILGƏH INTERNAT MƏKTƏBININ UŞAQLARI ÜÇÜN GENIŞ TƏDRIS PROQRAMI: SENTYABR-MART 2001-2002

Bu, əslində iki müxtəlif layihənin birləşməsindən əmələ gələn bir tədris layihəsi olaraq, qeyd edilmiş internat məktəblərində təhsil alan 500-dən çox uşaq üçün geniş tədris proqramı təşkil etməyə və uşaqların inkişafına nail olmağa imkan yaratmışdı. Layihənin əsas məqsədi aşağıdakılardan ibarət olmuşdu: uşaqlarda depressiyanın, cəmiyyətdən kənarlaşdırılma hissinin aradan qaldırılması; uşaqlara onların gələcəkləri üçün lazımi bilik və təcrübənin öyrədilməsinin təmin edilməsi; psixoloci reabilitasiya və incəsənət terapiyası siniflərinin təşkili; geniş ictimaiyyətin diqqətinin bu zəif təbəqələrdən olan uşaqlara cəlb edilməsi; uşaqların sağlamlıq və inkişafını tədris üsulları ilə yaxşılaşdırılması; istedadlı uşaqların üzə çıxarılması və inkişaflarına köməyin göstərilməsi; uşaqlar üçün kompyüterin əsasları, Ingilis dili, incəsənət və mədəniyyət, insan hüquqları, sağlam həyat tərzi, foto və rəsm dərsləri və müxtəlif əyləncə tədbirləri kimi təlimlər və tədbirlərin təşkili edilməsi. Layihə çərçivəsində hər internat məktəbinə 1 ədəd kompüter, 1 ədəd televizov və videomaqnitofon hədiyyə edilmiş, kiçik kitabxana yaradılmışdır. Bundan əlavə, uşaqldar üçün Yeni Il şənliyi (R,Behbudov adına Mahnı Teatrında) də təşkil olunmuşdur.
Layihələrin sponsorları **Britaniya Səfirliyi (DFID)**, **Unocal Khazar** və **Blue Water Shipping BM** (1 saylı Maştağa Internat məktəbi) və **“GARADAĞ” Sement SC** (1 saylı Bilgəh Internat Məktəbi) şirkətləri olmuşlar.

### TƏNHA YAŞAYAN AHILLARA YARDIM LAYIHƏSI: MART-SENTYABR 2001

Layihənin əsas məqsədləri tənha ahılların sosial və psixoloci durumunu yaxşılaşdırmaq, onların həyat göstəricilərini yaxşılaşdırmaq, tələbat və ehtiyaclarını aydınlaşdırmaq, onlara özlərini cəmiyyətin tam hüquqlu üzvi kimi hiss etməkdə və təcrübələrinin cəmiyyət üçün gərəkli olduğuna inandırmaq, tənha yaşayan ahılların ilk Ictimai Cəmiyyətini yaratmaqla onların bir yerə gəlməsi və bir-birilərinə köməyin göstərilməsində yardım etməkdir. Layihə zamanı Bakı şəhəri Nəsimi və Səbayıl rayonlarında yaşayan 100 tənha ahıl insanın ehtiyac və tələbatları aşkar edilmiş, onların bacarıq və təcrübələri haqda məlumat toplanmış, arzu və maraqları aydınlaşdırılmış və 6 ay ərzində bunun əsasında həftənin 6 günü üzrə fəaliyyət cədvəli təşkil edilmiş və

aşağıdaki işlər aparılmışdır: ahıllara ev işləri üzrə yardımın göstərilməsi (ev yığışdırma, yemək bişirmə, paltar yuma, kiçik təmir işləri, psixoloci söhbətlər və s.), məktəblilərin bu işə cəlb edilməsi, ahıllar üçün Incəsənət terapiyası sinifləri və ya iş emalatxanalarının yaradılması həyata keçirilmişdir. Bundan əlavə, ahılların sosial inteqrasiyası və asudə vaxtlarının səmərəli təşkili və psixososial reabilitasiyanın aparılması məqsədi ilə onlar üçün müxtəlif gəzintilər, «Çay Dəstgahları», adi görüşlər, teatr və kinoteatrlara səfərlər, masaüstü oyunlar (nərd, domino, dama, şahmat və s.) və əl işlərinin müsabiqələri təşkil edilmişdi. Layihənin sonunda layihə barədə Ingilis və Azərbaycan dillərində «Təşəkkürsüz» adlı sənədli film çəkilmiş video kaset və CD-lərə yazılmışdı. Layihə **KANADA FONDU (CIDA), Kanadanın Türkiyədəki Səfirliyinin** maliyyə dəstəyi ilə həyata keçirilmişdi**.**

### SAĞLAM HƏYAT TƏRZININ TƏBLIĞI: Fevral-İyul 2001

Narkomaniya və AIDS problemləri və bu faciəli xəstəliklərin məhz gənclər arasında tez yayılması indiki zamanda bütün dünyada olduğu kimi Azərbaycanda da böyük narahatlıq doğurur və cəmiyyətin bütün təbəqələrini bu problemin həllində iştirak etməyə vadar edir. Bunları nəzərə alaraq Ümidli Gələcək Gənclər Təşkilatı AIDS və narkomaniya və digər pis vərdişlərdən olan alkoqolizm və siqaret çəkmənin zərərləri, onların qarşısının alınması, şəxsi gigiyenanın geniş və aktiv təbliği sahəsində respublikanın cənub rayonları olan Astara və Lənkaranda 32 məktəbin şagirdləri arasında geniş məlumat sessiyaları, seminarlar təşkil etmiş, uşaqları bu məsələlər arasında təlimlər vasitəsi ilə maarifləndirmiş, onlar arasında bu mövzulara dair rəsm müsabiqəsi keçirmişdi. Bu layihə **TotalFinaElf** şirkətlərinin maliyyə dəstəyi ilə həyata keçirilmişdi.

### NARKOTIKLƏRIN ISTIFADƏSI-INSANI UÇURUMA APARAN YOL: Sentyabr-Oktyabr 2000

Narkomaniya və AIDS-in yayılması problemləri, şəxsi gigiyena və sağlam həyat tərzi prinsipləri Sosial və Tibb Proqramları Departamentinin diqqətini onların cəmiyyətdə aktual olduğuna görə cəlb etmişdi. Layihə Bakı şəhərinin Nizami rayonunun 20 saylı orta məktəbinin 9-11-ci sinif şagirdləri arasında (1500-dən artıq məktəbli) məlumat xarakterli məruzələr və debatlar keçirməsindən ibarət olmuşdur. Məktəblilər narkomaniya, AIDS, ondan müdafiə olunma, müxtəlif narkotiklərin zərəri, siqaret və alkoqolizmin insan orqanizminə olan təsiri, şəxsi gigiyenaya riayət etmə qaydaları və s. səhiyyə sahəsində məlumat əldə etmişlər. Tədbirin keçirildiyi zaman "Narkotiklərin Istifadəsi - insanı uçuruma aparan yol" adlı rəsm müsabiqəsi keçirilmiş və ən yaxşı işlər müxtəlif mükafat və diplomlara layiq görülmüşdü. Bu tədbir **Böyük Britaniya Səfirliyi, Nou Xau Fondunun** maliyyə dəstəyi ilə həyata keçirilmişdi.

### MÜHACIRƏT VƏ SAĞLAMLIQ MƏSƏLƏLƏRI: Aprel-Avqust 2000-ci il

Qaçqın və məcburi köçkünlərin sosial və səhiyyə problemləri cəmiyyətin diqqətini cəlb etdiyi kimi, Ümidli Gələcək Gənclər Təşkilatının diqqətini cəlb etmişdir. Bunun əsasında təşkilat ölkənin Imişli, Sumqayıt və Mingəçevir şəhərlərində müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlər üçün səhiyyə problemləri, sağlam həyat tərzi, AIDS\HIV, narkomaniya, şəxsi gigiyenaya riayət edilməsi, ekoloci təmizlik və epidemioloci durumun qorunub saxlanılması haqda geniş məlumat vermiş və müxtəlif kitabça və materiallar paylamışdır. Layihənin sponsorları **BMT-nin Beynəlxalq Mühacirat Təşkilatı (IOM) təşkilatı** olmuşdur.

# TƏHSİL, MƏDƏNİYYƏT & İDMAN PROQRAMLARI

*Təhsilin keyfiyyətini yüksəldirik...*

### «HƏYATİ BACARIQLARA ƏSASLANAN TƏHSİL» LAYİHƏSİ, Mart-Avqust 2007

Təhsil Nazirliyi, BMT-nin Ümumdünya Ərzaq Proqramı və Ümidli Gələcək Gənclər Təşkilatı birgə 2007-ci ilin Mart ayından başlayaraq «Həyati Bacarıqlara Əsaslanan Təhsil» layihəsini həyata keçirib. Bu layihə çərçivəsində təşkilatın nümayəndələri Təhsil Nazirliyinin bu sahə üzrə mütəxəssisləri ilə birgə Ağcabədi, Yevlax, Şəki, Mingəçevir, Ağdam, Biləsuvar, Füzuli, Saatlı, Sabirabad və Imişli rayonlarında seçilmiş 167 məktəbin ibtidai sinif müəllimləri və valideynləri üçün «Həyati Bacarıqlara Əsaslanan Təhsil» kursu üzrə təlimlər təşkil ediblər. Bundan əlavə, hər bir rayon üzrə seçilmiş bir neçə məktəbdə təlimlərdən öncə

vəziyyətin ilkin dəyərləndirməsi məqsədilə sorğular və müsahibələr aparılıb. Layihə çərçivəsində Iyun ayının 7-də «Həyati Bacarıqlara Əsaslanan Təhsilin Təşkili Perspektivləri» mövzusunda Milli Konfrans keçirilib. Konfransda yuxarıda qeyd edilmiş pilot rayonlardan 70 nəfər müəllim, valideyn və təhsil şöbələrin metodistlərinin iştirakı etmişdir. Həmçinin Layihə çərçivəsində Ümumdünya Ərzaq Proqramının dəstəyilə Ümidli Gələcək Gənclər Təşkilatı Təhsil Nazirliyi ilə əməkdaşlıqda qeyd olunmuş rayonların orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında həyati bacarıqların aşılanmasını təmin etmək məqsədilə yuxarı sinif müəllimləri, rayon təhsil şöbələrinin müvafiq sahə üzrə metodistləri və yuxarı sinif şagirdələrinin valideynləri üçün Iyun ayının 17-19 tarixlərində Bakı şəhərində 3 günlük təlim kursu təşkil edilmişdir. Layihə çərçivəsində filmlər çəkilib və çap materialları təqdim edilmişdir.

## AZƏRBAYCANIN ÜÇ RAYONUNDA "MƏKTƏB UŞAĞIN DOSTUDUR" KONSEPSIYASININ İNKİŞAFI, Mart-Dekabr 2006

Mart ayının 23-24-də Avropa Otelində UNICEF, Təhsil Nazirliyi, Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı və Ümidli Gələcək Gənclər Təşkilatının təşkilatçılığı ilə «Məktəb Uşağın Dostudur» adlı konsepsiya çərçivəsində seminar həyata keçirilib. Azərbaycanın 7 rayonu və Bakı və Sumqayıt şəhərlərindən olan məktəb direktorlarının, müəllimlərin, valideynlərin və təhsil şöbələrinin nümayəndələrinin iştirak etdikləri seminarda təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəbin uşaqlar üçün daha yararlı mühitə çevrilməsi yolları araşdırılıb. Özündə 5 əsas elementi – effektivliyi, müdafiəni, inklüziv/hərtərəfli təhsili, sağlamlığı və valideyn və icmanın təhsil prosesinə cəlb edilməsini birləşdirən «Məktəb Uşağın Dostudur» konsepsiyasında qeyd edilmiş hər bir istiqamət üzrə işçi qruplar yaradılaraq həmin məsələlər işçi qruplarda görüləcək işlərin planı və həm məktəblərə, həm icmalara, həm də dövlət və bələdiyyə strukturlarına tövsiyyələr hazırlanıb. Tədbirdə iştirak edən təhsil naziri Misir Mərdanov hazırlanmış tövsiyyələrin günün tələblərinə uyğun olduğunu və yüksək peşəkarlıqla tərtib edildiyini bi.ldirdi. Həmçinin, dövlətin də bu istiqamətdə fəaliyyət göstərdiyini və məktəblərin uşaqların dostlarına çevrilməsi işinin nazirlik üçün də prioritet sahə olduğunu vurğuladı. UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Xanım Hanaa Singer də qısa zaman ərzində bu cür yüksək səviyyəli işin görülməsindən razı qaldığını və bu işləri məhz peşəkarların görə biləcəyini diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan xalqının dərin mədəniyyətə və təhsil ənənələrinə malik olması belə düşünməyə əsas verir ki, qısa zaman ərzində göstərilən məsələlər reallaşacaq və Azərbaycan məktəbləri dünyanın inkişaf etmiş ölkələrinin məktəbləri səviyyəsinə yüksələcəkdir.

## VALIDEYN-MÜƏLLIM ASSOSIASIYALARI ÜZRƏ MILLI SIYASƏTIN FORMALAŞDIRILMASINA DAIR MILLI KONFRANS: Yanvar -Fevral 2004

2003-cü ildə həyata keçirilmiş layihə çərçivəsində yaradılmış VMA-ların əldə etdiyi nailiyyətlər, təcrübə və bilikləri geniş yaymaq, geniş ictimaiyyəti VMA ideyası haqda maarifləndirmək və VMA hərəkatının respublikanın digər məktəblərinə yaymaq məqsədi ilə Ümidli Gələcək Təşkilatı UNICEF və Təhsil Nazirliyinin dəstəyi ilə Hyat Recensi Mehmanxanasında şəhər, rayon təhsil şöbələrinin rəhbərləri, respublikanın 10-a yaxın məktəbinin direktorları, valideynlər, təhsil işçilərin və QHT və KIV nümayəndələrinin iştirakı ilə Konfrans təşkil etmişdir. Konfransa 320-yə yaxın iştirakçı qatılmışdı. Konfrans zamanı təşkil edilmiş işçi qruplarda Milli Siyasətin formalaşdırılması, VMA-ların nümunəvi nizamnaməsi və ikin fəaliyyət planı hazırlanmış və Təhsil Nazirliyi və UNICEF-ə təqdim edilmişdi. Layihə **UNICEF** və **Təhsil Nazirliyinin** maliyyə və texniki dəstəyi ilə həyata keçirilmişdi.

## SÜLH NAMINƏ TƏDRIS: MÜNAQIŞƏLƏRƏ SON QOYAQ, ZORAKILIQDAN ƏL ÇƏKƏK VƏ ƏDALƏTI BƏRQƏRAR EDƏK: Aprel-Sentyabr 2004

«Ümidli Gələcək» Gənclər Təşkilatı «Yuva» Humanitar Mərkəzi, Gürcüstanda fəaliyyət göstərən Məcburi Köçkün Qadınlar Asosiasiyası və Helsinki Vətəndaş Assambleyası ilə birgə Danimarka Qaçqınlar Şurasının maliyyə və Təhsil Nazirliyinin texniki dəstəyi ilə «Sülh naminə Tədris: münaqişələrə son qoyaq, zorakılıqdan əl çəkək və ədaləti bərqərar edək» adlı layihəni həyata keçirmişlər. Bu layihə Bakı, Sumqayıt, Biləsuvar, Saatlı, Imişli, Bərdə, Mingəçevir və Gürcüstanın Qori, Tsxaltubo və Kutaisi rayonlarında məskunlaşmış qaçqın və məcburi köçkün uşaqların təhsil aldıqları orta ümumtəhsil məktəblərində həyata keçirmişdir. Layihə

zamanı qeyd olunmuş məktəblərdən 25 müəllim seçilərək, Bakıda «Sülh Mədəniyyəti və münaqişələr həlli» üzrə keçirilən təlim kursunda iştirak etmiş və sonra əldə etdikləri bilik və bacarıqlarını işlədikləri məktəblərdə yerli təlimlərin təşkili vasitəsi ilə digər müəllimlərlə bölüşmüşlər. Bundan əlavə layihə zamanı Azərbaycan və Gürcü dillərində «Sülh Mədəniyyəti və münaqişələr həlli» adlı dərs vəsaiti hazırlanmış və məktəblərə paylanmışdır. Layihənin nəticəsi olaraq, Azərbaycan və Gürcüstan respublikalarının Təhsil Nazirlikləri, QHT-lər, Danimarka, Norvec və s. ölkələrin nümayəndələrinin iştirakı ilə Bakı şəhərində Sentyabr ayında «Sülh Mədəniyyəti və münaqişələr həlli» mövzusuna dair Beynəlxaln Konfrans təşkil edilmişdi.
Layihə KRINQO şəbəkəsi çərçivəsində Danimarka Qaçqınlar Şurasının maliyyə dəstəyi ilə həyata keçirilmişdir.

## PILOT VALIDEYN-MÜƏLLIM ASSOSIASIYALARININ YARADILMASI: Mart – Dekabr 2003

Bu layihənin əsas məqsədi Azərbaycanda ilk dəfə pilot məktəblərdə Valideyn müəllim əməkdaşlığına təkan vermək və bu əməkdaşlığın yeni modeli olan Valideyn-Müəllim Assosiasiyalarınıı yaratmaq və sınaqdan keçirərək sonradan bu modeli respublikanın digər məktəblərində yaymaq. Layihə respublikanın Qəbələ, Şəki, Masallı, Quba və Bakı şəhərlərinin pilot məktəblərində həyata keçirilmişdi. 10 ay ər ərzində bu məktəblərdə VMA-lar yaradılmış və onların fəaliyyətinə təkan verilmiş, valideynlər, müəllimlər və uşaqlar arasında əməkdaşlıq yaradılmış, VMA-ların yaradılması üzrə xüsusi təlim vəsaiti hazırlanmış və məktəblər arasında paylanmışdır. Layihə zamanı mövzuya dair bir televiziya verilişi, 45 dəqiqəlik sənədli film hazırlanmış və təqdim edilmişdi. Layihə UNICEF-in maliyyə və Təhsil Nazirliyinin texniki dəstəyi ilə həyata keçirilmişdi.

## MƏKTƏBLILƏR ARASINDA "ƏGƏR MƏN SÜLHÜN ELÇISI OLSAYDIM..." ADLI INŞA MÜSABIQƏSI: Aprel-Iyun 2002

Bu layihənin əsas məqsədi Azərbaycanda BMT-nin 10 illik Sülh mədəniyyətinin təbliğinə dəstək vermək məqsədi ilə respublikanın bütün məktəblərinin iştirakı ilə «Əgər mən sülh elçisi olsaydım...» adlı Inşa Müsabiqəsi keçirməkdən ibarət olmuşdur. Layihə üzrə respublikanın bütün şəhər, rayon və kənd məktəblərindən 6000-ə yaxın inşa təqdim edilmiş və onların sırasından ən yaxşı 20 inşa seçilmiş və kitab şəklində çap edilmişdi. Layihə Birləşmiş Millətlər Təşkilatının Qadınlar üçün Inkişaf Fondunun (UNIFEM) maliyyə vəsaiti ilə həyata keçirilmişdi.

## AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASINDA 1ci İXTİSASLAŞDIRILMIŞ İQTİSADİ KITABXANA: Avqust-Dekabr 1999

ÜMIDLI GƏLƏCƏK Azərbaycan Dövlət Neft Akademiyasında iqtisadiyyat, informasiya texnologiyaları və dəqiq elmlər üzrə Kitabxana yaratmış və bununla da uzun müddətdir ki müşahidə olunan bu sahələr üzrə kitab qıtlığına son qoymuş və tələbə, müəllim və elmi işçilər üçün yeni iqtisadi məlumatlar və yeni kitablara və yeni biliklərə yiyələnmək üçün geniş imkanlar yaratmışdı. Kitabxanada Rusiyadan alınmış 2300-dən artıq kitab yığılmışdır. Kitabxana müasir avadanlıq, kserokopiya aparatı, kompüter texnikası və 25 nəfər üçün rahat oxu zalı ilə təmin edilmişdi. Layihəyə Chevron Overseas Exploration Ltd. Şirkətinin maliyyə dəstəyi ilə həyata keçirilmişdi.

## 1ci BAL RƏQSLƏRI FESTIVALI - 2000, 11 IYUN

Festival Bakıda "Hyatt Regency" Otelində Quba zalında keçirildi. Festivalda 6-dan çox Bal Rəqsləri Məktəbi və 60-a yaxın nümayəndə iştirak etdilər. Yaş həddi 8 lə 24 yaş arasında idi. Rəqs qrupları vals, cayv, ça-ça, samba, tvist, rok-n-roll və başqa rəqs kompozisiyaları təqdim etdilər. Bununla yanaşı bir neçə individual kompozisiyalar da təqdim olunmuşdu. Məşhur Azərbaycan rəqqaslarına və peşəkar sənətçilərdən ibarət müsiflər heyəti iki yaş kateqoriyası, iki rəqs - Avropa və Latın rəqsləri kateqoriyaları və üç keyfiyyət - kiçik, böyük və peşakar kateqoriyalarına görə seçim təyin etmişdi. Heyət Festivalın qaliblərini diplom, qiymətli hədiyyələrlə mükafatlandırdılar və bütün iştirakçılar sertifikat aldılar. Bu layihə ÜMIDLI GƏLƏCƏK tərəfindən üzvlük haqqından və kitabxananın üzvlük haqqları ilə maliyyəşdirilmişdi.

## GƏNCLƏRIN 2ci DRAM FESTIVALI - 2000, 23 NOYABR

Bu ÜMIDLI GƏLƏCƏK GƏNCLƏR TƏŞKILATI tərəfindən təşkil olunmuş ikinci illik festival idi. Festival məşhur Azərbaycan dramaturqu C. Cabbarlının 100 illiyinə həsr olunmuşdu. Bakı və Sumqayıtın 20-dən çox ibtidai və orta məktəblərinin 40-dan artıq teatr yaradıcı qrupları festivalda iştirak etmək arzularını bildirmişdilər, lakin müsiflər heyəti tərəfindən ancaq 17 qrup seçildi. Festival proqramı iki yerə-Azəri/Rus və Ingilis bölmələrinə bölünmüşdü. Bu kollektivlər arasında festivaldaxili qurulmuş yarış Müsiflər heyəti tərəfindən diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmış 6 uğurlu qrup aşgar edildi. Qalan iştirakçılar sertifikat aldılar. Müsiflər heyəti məşhur aktyorlar, xarici şirkətlərin (ingilis dili bölməsi üçün) nümayəndələri Açıq Cəmiyyət Institutunun (Soros fondu) mədəyiyyət və incəsənət proqramları koordinatoru, Gənclər və Idman Nazirliyinin (mədəniyyət/incəsənət və gənclər proqramları şöbəsi) nümayəndəsi və C. Cabbarlı-nın nəvəsindən təşgil olunmuşdu. Bu festival Ümidli Gələcək 2001-ci ildə Bakıda keçirilməyə planlaşdırılan I Avropa Incəsənət Festivalı üçün Azərbaycanda seçim xarakteri daşıyırdı. Festival BP Exploration Caspian Sea Ltd. tərəfindən sponsorlaşdırıldı.

## SÜBHDƏN QÜRUBƏDƏK/GƏNCLƏRIN YARADICILIQ FESTIVALI: 13-18 DEKABR 2001-ci il

Bu layihə Ümidli Gədləcək Gənclər Təşkilatının Mədəniyyət və Incəsənət Departamentinin Azərbaycan mədəniyyət və incəsənətinin inkişafı və bu prosesdə gənclərin iştirakına həsr olunmuş birinci böyük layihəsidir. Bu layihə əsasən istedadlı gənclərin kəşfinə və beynəlxalq festivallarda özünü layiqincə nümayiş etdirməyə yönəldilmişdir. Bundan əlavə festivalın əsas məqsədlərindən biri də gələn il Bakı şəhərində keçirməyə planlaşdırılan «MEYDAN» Avropa Gənclər Festivalına potensial iştirakçıların seçimi idi. Layihənin adı «Sübhdən Qürubədək/Gənclərin Yaradıcılıq Festivalı» idi və o üç gün müddətində keçirildi: Azərbaycan Kinoteatrı (birinci gün), Art Salon (ikinci gün) və R.Behbudov adına Mahnı Teatrı (üçüncü gün). Onu da qeyd etmək lazımdır ki, belə bir festival Azərbaycanda ilk dəfə keçirilmişdir. Festival çərçivəsində həyata keçirilən tədbirlər BP Exploration Caspian Sea Ltd., AR Gənclər, Idman və Turizm Nazirliyi, Açıq Cəmiyyət Institutu – Yardım Fondu, AzEuroTel BM və Parfums de France şirkətlərinin sponsorluğu ilə mümkün olmuşdur.

## Uşaq Hüquqlarının Təbliği və Müdafiəsi Sahəsində «Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq» Milli İctimai Mükafatın təqdim etmə mərasimi: 23 İyun 2008-ci il

2006-cı ildən etibarən QHT Alyansı UNİCEF-in Azərbaycandakı Ofisi ilə əməkdaşlıqda və Azercell Telekom şirkətinin dəstəyilə «Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq» milli kampaniyası çərçivəsində uşaq hüquqlarının təbliği və müdafiəsi sahəsində fəaliyyətləri ilə seçilmiş qurum və şəxslərin mükafatlandırılmasını həyata keçirir. 2008-ci ildə də QHT nümayəndələri arasında keçirilmiş sorğular əsasında yeddi nominasiya üzrə mükafatlandırılacaq qurum və şəxslər müəyyənləşdirilib. QHT Alyansına daxil olan və uşaq hüquqlarının müxtəlif sahələri üzrə fəaliyyət göstərən QHT-lərin nümayəndələrindən ibarət formalaşdırılmış Təşkilat Komitəsi may-iyun aylarında mükafatın verilməsi ilə bağlı əsas məqamları müəyyənləşdirib, eləcə də sorğuların keçirilməsi qaydaları razılaşdırılıb. Bundan sonra isə bilavasitə sorğuların keçirilməsi həyata keçirilib. Sorğunun nəticəsində qalib olmuş qurum və şəxslərə müxtəlif nominasiyalar üzrə mükafatlar verildi. Uşaq Hüquqlarının Təbliği və Müdafiəsi Sahəsində «Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq» Milli İctimai Mükafatın təqdim etmə mərasimi QHT Alyansı, Azərbaycan Respublikasının Insan Hüquqları Üzrə Müvəkkili (Ombudsman), UNİCEF-in Azərbaycan Ofisi və Azercell Telekom şirkətinin dəstəyilə 2008-ci il iyun ayının 23 növbəti dəfə M.Maqomayev adına Dövlət Filarmoniyasında gerçəkləşdi.

## "UŞAQ HÜQUQLARI KLİNİKASI", UNİCEF, ATƏT-in Bakı ofisi, Böyük Britaniya Səfirliyi, Böyük Britaniyanın Esseks Universitetinin Uşaq Hüquqları Mərkəzi: Faza 1, sentyabr-dekabr 2007

Uşaq Hüquqları Klinikası İnsan Hüquqları üzrə Müvəkkillə (Ombudsman) əməkdaşlıqda UNICEF-in, ATƏT-in Bakı Ofisi və Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının üzvləri olan Ümidli Gələcək Gənclər Təşkilatı və "Hüquq Dünyası" Hüquqi Təbliğat İctimai Birliyi tərəfindən 15 sentyabr 2007-ci il tarixində Bakı şəhərində təsis olunub.

Uşaq Hüquqları Klinikasının əsas məqsədi Uşaq Hüquqları sahəsində Kliniki Hüquqi Təhsilin inkişafına kömək etmək və Uşaqlara Hüquqi yardım göstərməkdir. Uşaq Hüquqları Klinikasının vəzifələri sırasında uşaq hüquqlarının təbliği və milli səviyyədə ictimai vəkillik və maarifləndirmənin təşkili; kliniki təhsilin inkişaf etdilrilməsi yolu ilə uşaq hüquqları sahəsində hüquqşünasların əməkdaşlığının yaradılması; uşaqlara pulsuz hüquqi yardımların göstərilməsi; uşaqların hüquqlarının qorunmasından irəli gələn məsələlərin həlli məqsədilə məhkəmələrdə müdafiə işinin həyata keçilrilməsi; yuvenal ədliyyə sahəsində gənc hüquqşünasların hazırlanması; uşaqların hüquqi müdafiəsi sahəsində ixtisaslaşmış peşəkar hüquqşünasların hazırlanması vəzifələri vardır.

## "UŞAQ VƏ GƏNCLƏRİN SOSİAL REABİLİTASİYA MƏRKƏZİ", UNİCEF, ATƏT, Böyük Britaniya Səfirliyi, Böyük Britaniyanın Esseks Universitetinin Uşaq Hüquqları Mərkəzi: Faza 1, sentyabr-dekabr 2007

2007-ci ilin Avqust ayında Daxili İşlər Nazirliyi, UNİCEF-in Azərbaycandakı Nümayəndəliyi, ATƏT-in Bakı ofisi və Ümidli Gələcək Gənclər Təşkilatı arasında Əməkdaşlıq Memorandumu imzalandı. İmzalanmış memorandum çərçivəsində Ümidli Gələcək Gənclər Təşkilatı Daxili İşlər Nazirliyi, UNİCEF, ATƏT-in Bakı ofisi və Böyük Britaniya Səfirliyinin dəstəyi ilə və Böyük Britaniyanın Esseks Universitetinin Uşaq Hüquqları Mərkəzi ilə əməkdaşlıqda ilk dəfə olara pilot şəklində Bakı şəhərinin Nərimanov rayonunda qanunla ziddiyyətdə olan, az ağır və ağır cinayət və digər hüquqpozmalar törətmiş, habelə çətin tərbiyə olunan yetkinlik yaşına çatmayanlar arasında profilaktik işin aparılması və bu uşaqlara dair alternativ tərbiyəvi tədbirlərin tətbiqini həyata keçirəcək xüsusi Psixo-Sosial Reabilitasiya və Hüquqi Yardım Mərkəzi yaradılıb.

Mərkəzə qəbul edilən uşaqlar rayon yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya və rayon polis idarərləri tərəfindən rəsmi şəkildə göndərilir. Qəbul edilmiş hər bir uşaqla ən azı 3-4 aylıq müddət ərzində psixo-sosial reabilitasiya işi aparılır. Uşaqlarla aparılan bu cür alternativ icma əsaslı reabilitasiya işi rayon yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya və rayon polis idarərləri, habelə məhkəmələrə aylıq hesabatlar təqdim edir.

**«HEÇ BIR UŞAĞI NƏZƏRDƏN QAÇIRMAYAQ» LAYİHƏSININ 2-Cİ FAZASININ AZƏRBAYCANDA HƏYATA KEÇİRİLMƏSİ, Avropa Birliyi Komissiyası və UNICEF, May 2005 – Iyun 2006**

2005-ci ilin May ayından başlayaraq Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı UNICEF və Avropa Birliyinin Komissiyası ilə birgə 2005-2006-ci illəri əhatə edəcək və öz əsasında milli səviyyədə uşaq hüquqlarının tədrisi və vəkilliyi sahəsində Azərbaycanın müxtəlif dövlət qurumlarının uşaq problemləri ilə məşğul olan məsul nümayəndələri, uşaq hüquqları ilə məşğul olan yerli QHT-lər, beynəlxalq təşkilatların əməkdaşları və həmçinin uşaqlar üçün xüsusi təlim/tədris kursunun təşkili, seçilmiş rayonlarda yerli dövlət qurumları, QHT-lər və uşaqların iştirakı ilə seminar-təlimlərin keçirilməsi və Alternativ QHT hesabatında əksini tapmış tövsiyyələrin həyata keçirilməsi məqsədilə dövlət orqanları ilə sıx əməkdaşlığın qurulmasından ibarət olacaq «Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq» layihəsinin 2-ci Fazasını həyata keçirir.

**BAKI ŞƏHƏRİNİN 11 RAYONUNDA QANUNLA MÜNAQİŞƏDƏ OLAN YETKİNLİK YAŞINA ÇATMAYANLAR ÜÇÜN UŞAQDAN-UŞAĞA DƏSTƏK VƏ MENTORLUQ XİDMƏTLƏRİ, UNİCEF: May-Oktyabr 2006**

Layihənin əsas məqsədi «Risk altında olan yetkinlik yaşına çatmayanların reabilitasiyası və cəmiyyətə tam inteqrasiyasının təşkili və onların cəmiyyətdən təcrid olunmasının qarşısının alınması məqsədilə səmərəli monitorinq və yönləndirmə mexanizmlərinin yaradılması» olub. Bu pilot layihə QHT Alyansının üzvləri olan – Ümidli Gələcək Gənclər Təşkilatı, Azərbaycan Gənc Hüquqşünaslar Birliyi, «El» Inkişaf Proqramları Mərkəzi tərəfindən May-Oktyabr aylarında Bakı şəhərinin 11 rayonu ərazisində həyata keçirilib. Layihə çərçivəsində Bakının bütün rayonlarının Icra Hakimiyyətləri yanında fəaliyyət göstərən «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar», rayon polis şöbələrinin uşaqlarla işləyən polis müfəttişləri, məktəblərin psixoloqları və tərbiyə işləri üzrə müavinləri, uşaq problemlərilə əlaqəli işləyən QHT-lərlə sıx əməkdaşlıq qurulmuş və layihə ilə nəzərdə tutulmuş təbdirlər planı sadalanan qurumların birgə əməkdaşlığı nəticəsində həyata keçirilmişdir. Layihə müddəti ərzində qanunla ziddiyətə düşməyə risk altında olan uşaqların vaxtında müəyyənləşdirilməsi, onlar arasında psixo-sosial reabilitasiya işinin aparılması vasitəsilə məktəbə, ailəyə və cəmiyyətə tam inteqrasiyasını əks etdirən mexanizm hazırlanmış və təcrübədən keçirilmişdir.

**YUVENAL ƏDLIYYƏ SISTEMININ INKIŞAFI VƏ YUVENAL ƏDLIYYƏ SISTEMINI TƏŞKIL EDƏN QURUMLARIN FƏALIYYƏTININ MONITORINQI, ATƏT-IN BAKI OFISI: Sentyabr 2005 – Iyun 2006**

Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının katiblik funksiyasını həyata keçirən Ümidli Gələcək Gənclər Təşkilatının təşəbbüsü və ATƏT-in Bakı Ofisinin dəstəyilə QHT Alyansın Yuvenal Ədliyyə üzrə Işçi Qrupunun üzvləri olan Azərbaycan Gənc Hüquqşünaslar Birliyi, Azadlıqdan Məhrumetmə yerlərinin müşahidəsi Ictimai Birliyi, «El» Inkişaf Proqramları Mərkəzinin iştirakı ilə «Yuvenal ədliyyənin inkişafı» proqramı çərçivəsində Azərbaycanın rayon və şəhərlərində yerləşən polis məntəqələrinin nəzdində olan müvəqqəti saxlama yerləri, uşaq bölüşdürücü mərkəzləri, uşaq tərbiyə müəssisəsi, yetkinlik yaşına çatmayanların saxlanması üçün nəzərdə tutulmuş təcridxanalar, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların fəaliyyətinin monitorinqini həyata keçirir. Eyni zamanda 2006-cı ilin Yanvar – Iyun ayları ərzində yetkinlik yaşına çatmayanların işləri ilə əlaqədar düzənlənəcək məhkəmə proseslərinin də müşahidəsi həyata keçiriləcəkdir. Bu layihənin nəticəsi olaraq, sadalanan sahələrdə mövcud problem və çətinliklər və onların aradan qaldırılması məqsədilə konkret təklif və tövsiyyələrdən ibarət hesabat hazırlanacaq və aidiyyatı orqanlara təqdim ediləcəkdir.

## MDB ÖLKƏLƏRININ REGİONLARDAN OLAN GƏNCLƏRI ÜÇÜN İNSAN HÜQUQLARINA DAİR YAZ MƏKTƏBİ, Avropa Şurası, Fevral – Iyun 2006

Ümidli Gələcək Gənclər Təşklatı Avropa Şurasının dəstəyilə Hamı Bərabərdir – Hamı Muxtəlifdir adlı Avropa Kampaniyası çərçivəsində MDB ölkələrindən olan kənd rayonlarının gənc liderləri üçün Insan hüquqlarına Əsaslanmış Proqramlaşdırmaya dair düşərgə təşkil edir. Bu yenilikçi pilot layihə kənd yerlərində fəaliyyət göstərən gənclər təşkilatlarının nümayəndələrinin fəaliyyətlərinin stimullaşdırılmasını, onların bir-biriləri ilə insan və uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsində təcrübə mübadiləsi aparmalarını, insan haqlarının qorunmasında əlavə bilik və bacarıq əldə etmələrini nəzərdə tutur. Təlim kursları Azərbaycan, Gürcüstan, Ukrayna, Rusiya Federasiyası və Belarus Respublikasının gəncləri üçün təşkil edilmişdi.

## AZƏRBAYCANDA YUVENAL ƏDLIYYƏ SISTEMININ INKIŞAF PERSPEKTIVLƏRI: 1-ci FAZA, FEVRAL-MAY 2005

Layihənin əsas məqsədi Azərbaycanda yuvenal ədliyyə sisteminin yaxşılaşdırılmaçü və inkişafı üçün təklif və tövsiyyələr hazırlamaqdan ötrü ölkə üzrə yuvenal ədliyyə sistemində araşdırma aparmaq və qanunvericiliyin BMT-nin beynəlxalq standartları ilə müqayisə edərək yuvenal ədliyyə idarəçiliyinin təkmilləşdirilməsi idi: qurbanın diqqət mərkəzində saxlanılması üsulunan istifadə edərək  uşağın diqqət mərkəzində saxlanılmasına çalışmaq, yəni dəstəyə, reabilitasiyaya və reinteqrpsiyaya ehtiyacı olan uşağı sistemin qurbanı kimi nəzərdən keçirmək. Ümidli Gələcək Gənclər Təşkilatı, «EL» Inkişaf Proqramları Mərkəzi və Respublika Uşaq Təşkilatının birgə həyata keçirdiyi ba layihənin nəticəsi kimi yuvenal ədliyə sistemində cari vəziyyət və vəziyyətin yaxşılaşdırılması üçün fəaliyət planı barədə hesabat hazırlandı və eləcə də BMT-nin Uşaq Hüquqları Komitəsinə təqdim ediləcək QHT hesabatının tərkib hissəsi kimi təqdim ediləcəkdi.
Layihə **Britaniya Səfirliyi və ATƏT-in Bakı ofisi** tərəfindən dəstəklənirdi.

## GƏNC INSAN VƏ UŞAQ HÜQUQLARI MÜDAFIƏÇILƏRI ÜÇÜN BMT VƏ AVROPA ŞURASI ÇƏRÇIVƏSINDƏ BEYNƏLXALQ INSAN VƏ UŞAQ HÜQUQLARININ MEXANIZMLƏRINƏ DAIR BEYNƏLXALQ TƏLIM KURSU - MART 2005

Layihə Ümidli Gələcək Cənclər Təşkilatının Avropa Şurası Avropa Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilmişdir. Təlim kursunda MDB ölkələrindən 25 nəfər gənc iştirak etmişdir. Iştirakçılar Rusiya Federasiyası, Moldova, Ukrayna, Özbəkistan və Gürcüstan və Azərbaycan Respublikasından olmuşdur. Təlim zamanı təlimçilər iştirakçılara 6 gün ərzində insan və uşaq hüquqlarının mahiyyyəti, onların qorunması üçün BMT və Avropa strukturları çərçivəsindəki mexanizmlər və s. məsələlər barəsində geniş məlumatlar vermişlər. Eləcədə təlim çərçivəsində ekspert qismində dəvət olunmuş mütəxəssislər də insan və uşaq hüquqlarının müdafiə mexanizmləri barədə öz təcrübələrini təlim iştirakçıları ilə bölüşmüşlər. Təlim kursu əsasən rol oyunları, fasilitasiya, debatlar, diskussiyalar, forumlar və s. metodlardan istifadə etməklə həyata keçirilmişdir.

## MDB VƏ MƏRKƏZI ŞƏRQI AVROPA REGIONU ÖLKƏLƏRINDƏ MÜNAQIŞƏLƏRIN HƏLLI VƏ SÜLH QURUCULUĞUNDA GƏNCLƏRIN IŞTIRAKI MODELLƏRI VƏ UĞURLU TƏCRÜBƏLƏRIN PAYLAŞMASINA DAIR GƏNC LIDERLƏR ÜÇÜN BEYNƏLXALQ TƏLIM KURSU

Ümidli Gələcək Gənclər Təşkilatı «MDB və Mərkəzi-Şərqi Avropa regionu ölkələrində mövcud münaqişələrin həlli və sülh quruculuğu prosesində gənclərin iştirakı modellərinə dair gənc liderlər üçün beynəlxalq təlim kursu» adlı layihə həyata keçirib. Layihənin məqsədi postsosialist ölkələrində mövcud olan münaqişələrin araşdırılması, onların baş vermə səbələrinin öyrənilməsi və bu münaqişələrin həll edilməsində gənclərin rolunun müəyyənləşdirilməsidir. Təlim kursuna cəlb edilmiş gənclər məhz bir zamanlar sosialist düşərgəsinə daxil olan ölkələrin təmsilçiləri idilər. Buraya Azərbaycan və Gürcüstan, Rusiya və Moldova, Bosniya-Hersoqovina, Makedoniya, Serbiya və Monteneqro kimi ölkələrin nümayəndələri daxildir. Altı gün davam edən təlim kursunda iştirakçılar münaqişələrin öyrənilməsi, təhlili, idarə olunması qaydaları, münaqişə tərəfləri arasında vasitəçilik, danışıqlar və onların aparılmasında QHT-lərin rolu, sülh quruculuğu və mədəniyyətlərarası təhsil və s bu kimi mövzuları müzakirə edildi. Təlim kursunun sonuncu günü isə təlim iştirakçıları konfrans keçirərək və öz ölkələrində, eləcə də münaqişələrin öyrənildiyi ölkələrdə baş verənlərə

öz münasibətlərini bildərəcək və münaqişələrin aradan qaldırılması yolunda görəcəkləri işlərdən söhbət açdılar. Layihə Avropa Şurası Gənclər Fondunun maliyyə dəstəyilə həyata keçirilib.

## GƏNC SIYASI LIDERLƏR ÜÇÜN BEYNƏLXALQ TƏLIM KURSU, AVROPA ŞURASININ AVROPA GƏNCLƏR FONDU YANVAR - MAY 2005

Gənc Liderlər üçün Siyasi Liderlik və Inkişafa dair Beynəlxalq Təlim Kursu Azərbaycanın şəhər və kənd regionlarında gənc siyasi liderlərin yetişmələrinə yardım etməni nəzərdə tutan bu yenilikçi pilot layihə siyasi cəhətdən fəal olan QHT, icma, bələdiyyə, siyasi partiya üzvlərinin, Azərbaycandakı xarici ölkə səfirliklərinin siyasi ekspertlərinin və bir sıra Avropa ölkələrindən olan gənclərin iştirakı şəraitində həyata keçirilib. Təlim kursları Azərbaycan, Gürcüstan, Ukrayna və Rusiya Federasiyasının gəncləri və Isveçdən olan gənclərin və təcrübəli şəxslərin iştirakı ilə keçirildi. Layihə çərçivəsində həmçinin bu sahədə gənc siyasi liderlərin və təlimçilərin birliyi yaradıldı, gənc siyasi liderlərə və siyasi partiyaların və QHT-lərin nümayəndələrinə lazımi biliklər, bacarıqlar, ideyalar və məlumatlar, praktik cəhətdən faydalı informasiyalar verildi, onların bacarıqlarının inkişaf etdirilməsi və siyasi institutların və siyasi bacarıqların gücləndirilməsi amacı ilə onlar arasında təcrübə və bilik mübadiləsi inkişaf etdirildi. Qadınların siyasi proseslərə cəlb edilməsi, qadınların siyasi qabiliyyətlərinin gücləndirilməsi və kənd və şəhər regionlarında qadınların siyasi liderliyinin və onların siyasi və ictimai fəal institutularda rolunun gücləndirilməsi də layihənin hədəflərindəndir. Təlim kursunun iştirakçıları və ümumiyyətlə siyasi fəaliyyətdə olan və siyasətlə maraqlanan gənclər arasında məlumat, bilik və bacarıqlar mübadiləsini təşkil etmək və eyni zamanda gənclər arasında şəbəkə yaratmaq məqsədilə layihə çərçivəsində iştirakçıların təşəbbüsü nəticəsində «Youth_In_Politics» və ya «Gənclər Siyasətdə» email qrupu yaradıldı. E-mailə daxil olmaq üçün youth_in_politics-subscribe@yahoogroups.com poçtuna məktub göndərmək və ya http://groups.yahoo.com/group/youth_in_politics internet saytına daxil olaraq qeydiyyatdan keçmək lazımdır. Layihə çərçivəsində həmçinin Beynəlxalq Mətbuat Mərkəzində «Gənclərin Siyasətdə Rolu» mövzusunda Beynəlxalq Konfrans təşkil edildi.

## MƏHBUSLARIN HÜQUQ VƏ AZADLIQLARINA DAIR TƏLIM KURSLARI – 2004-CÜ IL 05 MAY

«Gənc məhbuslara hüquq və azadlıqları sahəsində tədris» adlı layihə Ümidli Gələcək Gənclər Təşkilatı, Azərbaycan Insan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının Icrası Baş Idarəsi ilə birgə həyata keçirilmişdir. Layihəninn həyata keçirilməsində əsas məqsəd QHT və dövlət qurumlarının insan hüquqlarının tədrisi sahəsində əməkdaşlığı artırmaq, seçilmiş uşaq, qadın və kişi cəzaçəkmə müəssisələrində və korreksiya-tərbiyə mərkəzində əsasən 14-40 yaş arası oğlan və qız məhbuslara insan hüquqları, qadın və uşaq hüquqları, məhkəmə sistemi, məhkəmələrə müraciət qaydaları və s. mövzulara dair faydalı biliklərə yiyələnmək üçün geniş imkan yaratmaqdan ibarət olmuşdur. Bu layihə ilə bağlı təlimlər Bakı şəhərində yerləşən 4 cəzaçəkmə müəssisəsi və ağır tərbiyə olunan uşaqlar üçün xüsusi internat məktəbində keçirilmişdir. Layihə **Avropa Şurasının Avropa Gənclər Fondu** tərəfindən maliyyələşdirilmişdir.

## MDB GƏNCLƏRININ SÜLH QURUCULUĞU VƏ MÜNAQIŞƏLƏRIN TRANSFORMASIYASINDA ROLU MÖVZUSUNDA BEYNƏLXALQ TƏLIM KURSU VƏ KONFRANS, Yanvar-Mart, 2004

Layihə «Ümidli Gələcək» Cənclər Təşkilatının Avropa Şurasının maliyyə dəstəyi və Rusiya Federasiyasının Sankt-Peterburq Universitetinin Münaqişələr Mərkəzi və Rusiya-ABŞ Münaqişələr və Vasitəçilik Proqramı ilə birgə hazırladığı və həyata keçirdiyi Beynəlxalq Təlim Kursu və Beynəlxalq Konfransdan ibarət olmuşdur. Təlim kursunda MDB və Baltikyanı ölkələrdən 30 nəfər gənc iştirak etmişdir. Iştirakçılar 16 nəfəri Baltikyanı ölkələr (Latviya, Litva, Estoniya), Belarus, Rusiya Federasiyası, Moldova, Ukrayna, Qazaxstan, Qırğızıstan və Gürçüstan, və 14 nəfəri isə Azərbaycan Respublikasından olmuşdur. Təlim zamanı milli və beynəlxalq təlimçilər və dəvət edilmiş mütəxəssislər iştirakçılara 7 gün ərzində münaqişəşünaslıq, münaqişələrin yaranma və inkişaf mərhələləri, münaqişələrin növləri və həlli mexanizmləri, sülh quruculuğu, sülh mədəniyyəti, sülh quruculuğu və münaqişələrin həllində gənclərin və gənclər təşkilatlarının rolu və s. məsələlər barəsində geniş məlumatlar vermişlər. Təlim kursu əsasən rol oyunları, fasilitasiya, debatlar, diskussiyalar, forumlar və s. metodlardan istifadə etməklə həyata keçirilmişdir.

## «MƏNIM HÜQUQUM...» UŞAQ VƏ YENIYETMƏLƏR ARASINDA RESPUBLIKA RƏSM MÜSABIQƏSI, Mart – Oktyabr, 2003

**Böyük Britaniyanın Azərbaycandakı səfirliyi** tərəfindən maliyyələşdirilən və Təhsil Nazirliyi və UNICEF-lə əməkdaşlıqda həyata keçirilən bu layihənin əsas məqsədi uşaq və yeniyetmələr və ümumiyyətlə geniş əhali arasında BMT-nin Uşaq Hüquqları Konvensiyası və Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu əsasında maarifləndirmə prosesini təşkil etmək və əhalinin uşaq problemləri haqqında məlumatlılığını artırmaqdar ibarət olmuşdur. Müsabiqədə Azərbaycanın 50-dən çox rayonundan 6000 uşaq və yeniyetmə iştirak etmiş və onlardan 50 rəsm müəllifi Münsiflər Heyəti tərəfindən seçilmiş və müxtəlif mükafatlarla təltif edilmişlər. Ən yaxşı 5 əsərin müəllifinə isə həmçinin pul mükafatları təqdim edilmişdir. Layihənin sonunda respublikada ilk dəfə olaraq «Uşaq Hüquqlarının Tədrisi və Təbliğatı» mövzusunda Konfrans təşkil edilmişdir ki, burada ən yaxşı 50 əsərin müəllifləri, Təhsil Naziri Misir Mərdanov, Böyük Britaniyanın səfiri Andryu Taker, UNICEF, QHT nümayəndələri və uşaq hüquqları sahəsində mütəxəssislər iştirak etmişdir. Layihə nəticəsində ən yaxşı 50 əsərdən ibarət «Heç bir uşağı nəzərdən qaçırmayaq: Azərbaycanın seçimi» adlı xüsusi kitab hazırlanmış və müsabiqə iştirakçıları, dövlət qurumları, kitabxanalara, QHT və beynəlxalq təşkilatlara paylanmışdır.

## QADINLARIN HÜQUQLARI, ONLARIN POZULMASI VƏ MÜDAFIƏSINƏ DAIR BEYNƏLXALQ TƏLIM KURSU, Avqust – Dekabr, 2003

Avropa Şurasının 2002-ci ildə qadın huquqları sahəsində təşkil etdiyi Avropa Konfransının davamı olaraq, Ümidli Gələcək Gənclər Təşkilatı Avropa Şurasının Gənclər Fondunun dəstəyi ilə Azərbaycanda MDB məkanında Qadın Hüquqları, onların pozulması və müdafiəsinə dair Beynəlxalq Təlim Kursu və Konfrans keçirmişdi. Bu təlim kursunda Azərbaycan, Rusiya, Ukrayna və Gürcüstanda qadın hüquqları və insan hüquqlarının müdafiəsi və tədrisi sahəsində fəaliyyət göstərən QHT və dövlət qurumlarının nümayəndələri iştirak etmişlər. Təlim kursu və konfransın əsas məqsədi MDB ölkələrində bu sahədə olan vəziyyəti araşdırmaq və təhlil etmək, bu sahədə olan təcrübəyəni dinləmək, iştirakçılara insan və qadın hüquqları sahəsində lazımi bilik və bacarıqları vermək və mövcud vəziyyətdən çıxış yolu tapmaq və qadın hüquqların təmini ilə bağlı konkret təkliflər paketi hazırlamaqdan ibarət olmuşdu. Təlim Ümidli Gələcək Təşkilatının milli təlimçiləri tərəfindən keçirilmiş və təlimdə qeyd edilmiş ölkələrdən 30 nəfər iştirakçı iştirak etmişdir.
**Layihə Avropa Şurasının Avropa Gənclər Fondu tərəfindən maliyyələşdirilmişdi.**

